DOI: https://www.doi.org/10.36719/2663-4619/65/285-289

**İbrahim Behruz oğlu İbrahimov**
Bakı Dövlət Universiteti
magistrant
vomiharbi@inbox.ru

# TRANSMİLLİ CİNAYƏT TÖRƏTMİŞ ŞƏXSLƏRİN AXTARIŞI VƏ MÜHAKİMƏSİNDƏ EKSTRADİSİYANIN ROLU VƏ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *transmilli cinayətlər, qarşılıqlı hüquqi yardım, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəllə, dövlət suverenliyi, hüquqi şəxslərin məsuliyyəti, beynəlxalq hüquq, beynəlxalq cinayət hüququ, cinayət yusidiksiyası*

## The role and importance of extradition in the search and judgment of transmitted criminals

**Summary**

One of the most important forms of cooperation used by states in the fight against transnational crime is the extradition of criminals. The extradition of offenders is the restoration of social justice in society, the acquisition of a deserved punishment, regardless of the whereabouts of the perpetrator, as well as the implementation of state functions aimed at the execution of the sentence imposed on him. On the other hand, the main purpose of extradition should not result in human rights violations, nor should it restrict people's right to life, liberty, and a fair trial. These criteria are enshrined in the 2000 UN Convention against Transnational Organized Crime.
***Key words:*** *transnational crimes, mutual legal assistance, Criminal Code, Criminal Procedure Code, state sovereignty, responsibility of legal entities, international law, international criminal law, criminal jurisdiction*

Müasir qloballaşan dünyanın reallığı və təzahür forması kimi mövcud olan - transmilli mütəşəkkil cinayətkarlıq özünün dağıdıcı və miqyaslı təsiri ilə bütün dövlətlərin sabit durumuna real təhlükəyə çevrilməklə yanaşı, daim artan həcmi ilə dövlətlərin sosial-iqtisadi inkişafını və geniş sferada təhlükəsizliyini (hüquqi, siyasi, sosial və d.) hədəf seçərək onun pozulmasına səbəb olur. Aparılan elmi araşdırmalarda, o cümlədən qəbul edilmiş beynəlxalq və dövlətdaxili hüquqi aktlarda haqlı olaraq vurğulandığı kimi transmilli mütəşəkkil cinayətkarlıq uzun müddətə hesablanan və başlıca olaraq iqtisadiyyat sahəsində peşə növündə törədilən sistematik cinayətkar fəaliyyətdir və bu fəaliyyətin strategiya və taktikası yüksək mənfəət əldə edilməsi və ictimai həyatın müəyyən sahəsinə təsir göstərmək məqsədi ilə cinayətkar birlik və ya birliklər (cinayətkar qruplar, təşkilatlatlar) (8, s.54-65; 9, s.24-29; 11, p.124; 15, p.24-39) tərəfindən planlaşdırılır və həyata keçrilir. Onlar bəzən həm ölkə daxilində həm də beynəlxalq səviyyədə müəyyən struktura malik olurlar. Transmilli mütəşəkkil cinayətkarlıq hər şeydən əvvəl qeyri-leqal malların və xidmətlərin dövriyyəsini əlaqələndirir və ona nəzarət edir. Belə malların və xidmətlərin dövriyyəsi bir tərəfdən qanunvericiliklə qadağan edilir, digər tərəfdən cəmiyyətin fiziki və mənəvi sağlamlığı üçün olduqca böyük təhlükə törədir.

Elə bu sahədə əsas beynəlxalq hüquq aktı olan 2000-ci il Transmilli mütəşəkkil cinayətkarlıqla mübarizəyə dair BMT Konvensiyasında da mütəşəkkil cinayətkar qrup dedikdə - birbaşa və ya dolayı maliyyə və digər maddi mənfəət almaq üçün bir və ya bir neçə ciddi cinayəti və ya bu Konvensiyaya uyğun olaraq cinayət kimi tanınmış cinayətləri törətmək məqsədi ilə müəyyən müddət ərzində mövcud olan və birgə hərəkət edən üç və ya daha çox şəxsin struktur şəklində təşkil edilmiş qrupu başa düşülür (6). Məhz bu reallıqlar nəzərə alınmaqla, bu Konvensiyası onu ratifikasiya edən dövlətlərin üzərinə belə təhlükəli cinayətlərlə səmərəli mübarizə aparmaq məqsədilə zəruri qanunvericilik və təşkilati xarakterli tədbirlərin həyata keçirilməsi öhdəliyi qoymuşdur.

Transmilli cinayət törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilib cəzalandırılmasında ekstradisiyanın rolu və əhəmiyyətinin təhlilinə və araşdırılmasına keçməzdən öncə onunla birbaşa əlaqəyə malik olan bir məsələyə aydınlıq gətirmək istərdik. Belə ki, müvafiq iştirakçı dövlət ekstradisiya prosedurundan istifadə etməzdən öncə 2000-ci il Konvensiyasının 15-ci maddəsinə müvafiq olaraq, 5-ci (mütəşəkkil cinayətkar qrupda iştirakçılığın kriminallaşdırılması), 6-cı (cinayətdən əldə edilən gəlirlərin yuyulmasının kriminallaşdırılması), 8-ci (korrupsiyanın kriminallaşdırılması), 23-cü (ədalət mühakiməsi əleyhinə cinayətlərin kriminallaşdırılması) maddələrinə uyğun olaraq cinayət kimi tanınmış əməllərə dair öz yurisdiksiyasının müəyyən edilməsi üçün tələb olunan aşağıdakı tədbirləri görməlidir: a) cinayət həmin iştirakçı dövlətin ərazisində törədilibsə; b) cinayət, cinayət törədilən zaman iştirakçı dövlətin bayrağı altında

üzən gəminin göyərtəsində və ya həmin iştirakçı dövlətin qanunvericiliyinə uyğun olaraq o zaman qeydiyyatda olduğu hava gəmisində törədildikdə (6).

İştirakçı dövlət eyni zamanda bu Konvensiyanın 4-cü maddəsinin şərtlərinə riayət etməklə öz yurisdiksiyasını bu cür hər hansı bir cinayət barəsində müəyyən edə bilər: a) cinayət həmin iştirakçı dövlətin vətəndaşına qarşı törədildikdə; b) cinayət həmin iştirakçı dövlətin vətəndaşı tərəfindən və ya həmin dövlətin ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxs tərəfindən törədildikdə; və ya c) cinayət: i) bu Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq cinayət kimi tanınmış hər hansı cinayətlərdən biri olduqda və onun ərazisində ciddi cinayət törətmək məqsədi ilə onun hüdudlarından kənarda törədildikdə; ii) bu Konvensiyanın 6-cı maddəsinin 1 (b) (i) bəndinə uyğun olaraq cinayət kimi tanınmış hər hansı cinayətlərdən biri olduqda və həmin Konvensiyanın 6-cı maddəsinin 1 (a) (i) və ya (ii) və ya (b) (ii) bəndlərinə əsasən cinayət kimi tanınmış hər hansı cinayətlərdən birinin törədilməsi məqsədi ilə onun hüdudlarından kənarda törədildikdə (6).

15-ci maddənin 3-cü bəndində o da vurğulanır ki, bu Konvensiyanın 16-cı maddəsinin (cinayətkarların verilməsi) 10-cu bəndinin məqsədləri üçün hər bir iştirakçı dövlət, cinayət törətməkdə şübhəli bilinən şəxs onun ərazisində olduqda və o, bu cür şəxsin onun vətəndaşından biri olması səbəbinə görə həmin şəxsi vermədikdə, həmin Konvensiya ilə əhatə olunan cinayətlərə dair öz yurisdiksiyasını müəyyən etmək üçün lazımi tədbirlər görməlidir. Elə bu yerdə onu qeyd edək ki, AR Konstitusiyasında (53-cü mad. II b.) (1,s.18), AR 2001-ci il tarixli Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında Qanunda (3.1.1.-ci mad.) (4), AR Cinayət Məcəlləsində (13.1.-ci mad.) (2,s.37) barəsində sorğu edilən şəxsin AR vətəndaşı olması ekstradisiyadan imtinanın əsası hesab edilir.

Konvensiyanın 15-ci maddəsinin 4-cü bəndində nəzərdə tutulur ki, hər bir iştirakçı dövlət, cinayət törətməkdə şübhəli bilinən şəxs onun ərazisində olduqda və o, həmin şəxsi vermədikdə bu Konvensiya ilə əhatə olunan cinayətlərə dair öz yurisdiksiyasını müəyyən etmək üçün lazımi tədbirlər görməlidir. Əgər bu maddənin 1-ci və 2-ci bəndlərinə əsasən öz yurisdiksiyasını həyata keçirən iştirakçı dövlət bir və ya bir neçə iştirakçı dövlətdən eyni əməl ilə əlaqədar istintaqın, cinayət təqibinin və ya məhkəmə baxışının həyata keçirilməsi haqqında bildiriş alırsa və ya digər qaydada məlumatlandırılırsa, onda həmin iştirakçı dövlətlərin səlahiyyətli orqanları öz fəaliyyətlərini əlaqələndirmək məqsədilə lazım gəldikdə bir-biri ilə məsləhətləşmələr apara bilərlər (6). Həmin maddənin 6-cı bəndində iştirakçı dövlətləri üçün bir dispozitiv imkan da nəzərdə tutulur: qeyd olunur ki, bu Konvensiya beynəlxalq ümumi hüququn normalarına xələl gətirmədən iştirakçı dövlətlərin öz daxili qanunvericiliyinə uyğun olaraq müəyyən etdiyi hər hansı cinayət yurisdiksiyasının həyata keçirilməsini istisna etmir.

Transmilli cinayətlərlə mübarizə sahəsində qazanılmış beynəlxalq təcrübə sübut edir ki, bu sahədə istifadə olunan ən mühüm hüquqi alətlərdən birini cinayətkarların veriiməsi (ekstradisiya) institutudur və onun tətbiqi hər bir konkret halda cinayət cəzalanmalı əməli törətmiş şəxsi cəzalandırmaq, habelə məsuliyyətin labüdlüyünü təmin etməyə kömək etməkdən ibarətdir. Beynəlxalq və milli hüquq nəzəriyyəsində və konsepsiyasında təşəkkül tapmış müəyyənliyə görə, e*kstradisiya* beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə, beynəlxalq müqavilələrə və milli qanunvericilik aktlarına əsasən, cinayət törətməkdə ittiham edilən şəxsi cinayət məsuliyyətinə cəlb etmək və ya hökmün icra olunması üçün onların ərazisində yerləşdikləri dövlət tərəfindən ərazisində cinayət törədilmiş dövlətə və ya vətəndaşı olduğu dövlətə və ya cinayətdən zərər çəkmiş dövlətə verilməsini nəzərdə tutan hüquqi yardım aktıdır (7,s.113-119; 10, s.37; 12, p.24).

Ekstradisiya, eyni zamanda, cänayət törətmiş şəxsin başqa ölkəyə verilməsi zamanı prosessual təminatlara əməl etməklə şərtləşən cinayət-prosessual hüququn elementi kimi də nəzərdə tutulur. Bunun təsdiqi üçün hüquq ədəbiyyatında vurğulanır ki, ekstradisiya prosessual fəaliyyət olub cinayət-prosessual hüququn fəaliyyət sferasında yerləşir. Düzdür, prosessual normalar ekstradisiyanın tənzimlənməsi üçün mühüm əhəmiyyətə malikdir, xüsusən, təqsirli şəxsin həbsi, onun verilməsi haqqında qərardan şikayət və protest vermək və s. hallarda. Sadalanan hərəkətlər həqiqətən prosessual xarakter daşıyır və prosessual hüquq normaları ilə tənzim olunur Lakin bu hallar heç də onu təstiq etmək üçün kifayət qədər əsas vermir ki, ekstradisiya sırf cinayət-prosessual hüququn institutudur. Müstəqil hüquq institutu kimi ekstradisiyanı xarakterizə edən meyarlar ondan ibarətdir ki, o, - kompleks hüquqi fenomen kimi özündə həm beynəlxalq hüquq, xüsusən, beynəlxalq cinayət hüququ normalarını ( maddi və prosessual normaları ); həm də, milli hüquq normalarını (konstitusiya hüququ, cinayət hüququ, cinayət-prosessual hüquq normalarını, ekstradisiya haqqında qanunvericilik aktlarını) əks etdirən və dövlətlərarası xarakterli horizontal əməkdaşlıq alətidir. Bu prinsipial müddəa Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının *Tihomir Blaskiç işi üzrə* qərarında da öz təsbitini tapıb. Tribunal qərarında qeyd etmişdi ki, cinayət işləri üzrə dövlətlərin əməkdaşlığı mahiyyəti üzrə horizontal qarşılıqlı münasibətlərə, dövlətlər və beynəlxalq cinayət tribunalları (məhkəmələri) arasında

əməkdaşlıq vertikal münasibətlərə əsaslanır. Sonradan qeyd olunan bu konsepsiya beynəlxalq cinayət hüququ üzrə tanınmış alim, professor Antonio Kasseze tərəfindən daha da inkişaf etdirilmişdir (13,p.355-359). Cinayətkarların verilməsi institutunun horizontal xarakterli dövlətlərarası münasibətləri ehtiva etməsi 2000-ci il BMT Konvensiyasının 16-cı maddəsində də öz təsbitini tapıb.

Ekstradisiya ona görə horizontal əməkdaşlığın hüquqi aləti hesab edilir ki, bu hüququn müəyyən etdiyi öhdəliklər birbaşa olaraq suverenliyə və bərabər hüquqlara malik olan dövlətlərə ünvanlanıb (*par in parem imperium non habet*-bərabərin bərabər üzərində hökmranlığı yoxdur). Daha dəqiq desək, transmilli cinayətlərlə mübarizədə dövlətlərin müraciət etdiyi ekstradisiyanı xarakterizə edən mühüm şərtdən birini o təşkil edir ki, verilmənin həyata keçirilməsi ərazisində cinayətkar yerləşən dövlətin səlahiyyətinə daxildir və yalnız onun cinayətkarı maraqlı dövlətə vermək hüququ tanınır. Bu onunla əlaqədardır ki, dövlət milli yurisdiksiya hədlərində suverenliyi həyata keçirir və o, səlahiyyətli orqanlar qismində müvafiq qərarlar qəbul etməkdə disskresiyaya malikdir. Hüquq ədəbiyyatında vurğulandığı kimi ekstradisiya dövlətin suveren hüquqlarının həyata keçirilməsi çərçivəsində yerləşir və dövlət suverenliyi anlayışından kənarda qala bilməz (5,s.150-157; 16,p.34; 14, p.271-289).

2000-ci il BMT Konvensiyası da transmilli cinayətlərlə mübarizədə cinayətkarların verilməsi institutunun mühüm və əhəmiyyətli əməkdaşlıq forması olduğunu bəyan edir və bu sahədə iştirakçı dövlətləri bu sahədə təşəkklü tapmış beynəlxalq və dövlətdaxili hüququn normalarını və prinsiplərini əldə rəhbər tutmaqla, bu əməkdaşlıq formasından səmərəli şəkildə istifadəyə təşviq edir. Azərbaycan Respublikası Konvensiyanın transmilli cinayətlərlə mübarizədə universal hüquqi rejimin müəyyənləşməsində rolunu nəzərə alaraq, 2003-cü ildə ona qoşularkən 16-cı maddənin 5-ci bəndinə uyğun olaraq bəyan etmişdir ki, o, bu Konvensiyadan digər iştirakçı dövlətlər ilə ekstradisiya üzrə əməkdaşlıq üçün hüquqi əsas kimi istifadə edəcəkdir.

Konvensiyanın 16-cı maddəsində nəzərdə tutulan hüquqi müəyyənliklər ilk növbədə həmin aktın 3-cü maddəsinin şərtlərinin nəzərə alınmasını iştirakçı dövlətlərdən tələb edir. Həmin maddənin 1-ci bəndində qeyd olunur ki, bu Konvensiya ilə əhatə olunan cinayətlərə və ya əgər mütəşəkkil cinayətkar qrupun və verilməsi tələb olunan şəxsin 3-cü maddənin 1 (a) və ya (b) bəndində göstərilən cinayətlə əlaqəsi varsa, həmin hallarda tətbiq edilir, bu şərtlə ki, verilmə ilə əlaqəsi olan əməl həm sorğu edən iştirakçı dövlətin, həm də sorğu alan iştirakçı dövlətin daxili qanunvericiliyinə əsasən cinayət qanunu ilə cəzalandırılan əməl olsun (*ikili kriminallıq şərti)*. Bu şərt AR CM-in 12-ci maddəsində öz təsbitini tapıb.

İkinci bənddə isə qeyd olunur ki, əgər verilmə haqqında sorğu bu maddə ilə əhatə olunmayan bəzi bir neçə fərdi ciddi cinayətə aiddirsə, onda sorğu alan iştirakçı dövlət bu maddəni həmin sonuncu cinayətlərə də tətbiq edə bilər. Bu müəyyənlikdən aydın olur ki, 2000-ci il Konvensiyası 16-cı maddənin tətbiq dairəsini 5, 6, 8 və 23-cü maddələrdə transmilli cinayət kimi tanınan əməllərlə məhdudlaşdırmır və onu digər beynəlxalq konvensiyalarda nəzərdə tutulan digər ciddi cinayətlərə şamil edir. Təbii ki, bu Konvensiyanın pozitiv tərəfi kimi qiymətləndirilməlidir. Ona görə ki, hal-hazırda beynəlxalq və dövlətdaxili aktlarla qadağan olunan və daha çox beynəlxalq xarakterli cinayətlər kimi tanınan əməllər (məsələn, insan alveri, qanunsuz silah alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi, terrorizmin müxtəlif təzahür formaları) həm də transmilli cinayətlərdir və bu əməllərin transmilli mütəşəkkil qruplar, təşkilatlar və bəzi hüquq ədəbiyyatında qeyd olunduğu kimi hətta cinayətkar şəbəkələr tərəfindən törədilməsi istisna edilmir.

16-cı maddənin təşviq olunmasına əsas verən üstünlüklərindən biri də, onun 3-cü bəndinin müəyyənliyi ilə bağlıdır. Orada qeyd olunur ki, bu maddənin tətbiq edildiyi hər bir cinayət cinayətkarın verilməsi ilə nəticələnən cinayət kimi iştirakçı dövlətlər arasında verilmə haqqında mövcud olan istənilən müqaviləyə daxil edə bilərlər. Bu isə onu ehtiva edir ki, transmilli cinayətlər kimi bu Konvensiyada və ona dair Protokollarda tanınan əməllərə görə ekstradisiyanın mümkünlüyü iştirakçı dövlətlər tərəfindən bağlanılan digər konvensiyaların da predmeti kimi çıxış etməsi imkanı istisna deyil.

16-cı maddənin 4-cü bəndində isə qeyd olunur ki, əgər verilməni müqavilənin mövcudluğu ilə şərtləndirən iştirakçı dövlət, onunla verilmə haqqında müqaviləsi olmayan digər iştirakçı dövlətdən verilmə haqqında sorğu alırsa, onda o, bu Konvensiyanı bu maddənin tətbiq edildiyi hər hansı bir cinayətlə əlaqədar verilmə üçün hüquqi əsas kimi götürə bilər. Bu zaman verilməni müqavilənin mövcudluğu ilə şərtləndirən iştirakçı dövlətlər: a) öz təsdiqnamələrini və ya bu Konvensiyanın qəbul edilməsi və ya təsdiq edilməsi və ya ona qoşulma haqqında sənədlərini depozitara verərkən bu Konvensiyadan verilmə məsələlərində onun digər iştirakçı dövlətləri ilə əməkdaşlıq üçün hüquqi əsas kimi istifadə edilib-edilməməsi barədə BMT Baş katibinə məlumat bildirməlidirlər; və b) əgər onlar bu Konvensiyadan verilmə məsələlərində əməkdaşlıq üçün hüquqi əsas kimi istifadə etmirlərsə, onda onlar bu maddənin tətbiq edilməsi məqsədi ilə həmin Konvensiyanın digər iştirakçı dövlətləri ilə verilmə haqqında müvafiq müqavilələr bağlamağa çalışırlar.

Yuxarıda qeyd etdiyimiz ki AR bu Konvensiyadan verilmə məsələsində istifadə etməklə bağlı bəyanat vermiş və bu barədə məlumatı BMT Baş katibinə göndərmişdir.

Verilməni müqavilənin mövcudluğu ilə şərtləndirməyən iştirakçı dövlətlər öz aralarındakı münasibətlərdə bu maddənin tətbiq edildiyi cinayətləri verilmə ilə nəticələn cinayətlər kimi tanıyırlar (16-cı mad. 6-cı b). 16-cı maddənin 7-ci bəndinə əsasən, verilmə sorğu alan iştirakçı dövlətin daxili qanunvericiliyində nəzərdə tutulan müddəalara və ya verilmə haqqında tətbiq edilən müqavilələrə, o cümlədən verilməyə uyğun olaraq minimal cəza tələbləri ilə bağlı şərtlərə və sorğu alan iştirakçı dövlətin verilmədən imtina edə biləcəyi əsaslara uyğun olaraq həyata keçirilir. AR bu məsələlər Cinayət-Prosessual Məcəllənin 493, 494, 495, 496, 497, 498, 499, 500, 501, 502, 503, 504 və 505-ci maddələri ilə tənzimlənir (3,s.482-491).

Öz daxili qanunvericiliyinin və verilmə haqqında bağladığı müqavilələrin müddəalarına riayət etmək şərti ilə iştirakçı dövlətlər, işin hallarının bunu tələb etdiyinə və təxirəsalınmaz xarakter daşıdığına əmin olaraq və iştirakçı dövlətin sorğusuna əsasən öz ərazisində olan, barəsində sorğu edilən şəxsi həbs edə bilər və ya verilmə proseduru zamanı onun iştirakını təmin etmək üçün digər lazımi tədbirlər görə bilər (16-cı mad. 10-cu b.). Ərazisində, cinayətin törədilməsində şübhəli bilinən şəxsin olduğu iştirakçı dövlət bu maddənin tətbiq edildiyi cinayətlə bağlı bu cür şəxsi, onun vətəndaşlarından biri olduğuna görə təhvil verməzsə, onda həmin iştirakçı dövlət sorğu edən iştirakçı dövlətin xahişinə əsasən səbəbsiz ləngitmələrə yol vermədən, işi təqib məqsədi ilə öz səlahiyyətli orqanlarına verməyə borcludur. Bu orqanlar öz qərarlarını və işin icraatını həmin iştirakçı dövlətin daxili qanunvericiliyinə əsasən hər hansı bir digər ciddi xarakterli cinayətlərdə olduğu kimi burada da həmin qaydada qəbul etməli və həyata keçirməlidir. Maraqlı iştirakçı dövlətlər bu cür təqibin səmərəliliyini təmin etmək məqsədi ilə, xüsusən prosessual və sübut etmə etmə məsələlərində bir-biri ilə əməkdaşlıq edirlər.

16-cı maddənin 11-ci maddəsində iştirakçı dövlətin öz vətəndaşının verilməsi ilə bağlı məsələlərin tənzimlənməsi şərtləri təsbit olunub. Həmin bəndə əsasən, iştirakçı dövlət onun öz daxili qanunvericiliyinə uyğun olaraq öz vətəndaşlarından birinin verilməsinə və ya digər qaydada ötürülməsinə icazə verdikdə, bu cür şərti verilmə və ya ötürülmə bu maddənin 10-cu bəndində müəyyən edilən öhdəliklərin yerinə yetirilməsi üçün kifayətdir; yalnız bu şərtlə ki, həmin şəxsə məhkəmə araşdırması və ya icraatı zamanı təyin edilmiş cəzanı çəkmək üçün bu dövlətə qaytarılsın və həmin iştirakçı dövlət və bu şəxsin verilməsinə sorğu edən iştirakçı dövlət bu qayda ilə və onların müvafiq hesab etdiyi digər şərtlərlə razılaşsın. Hökmün icra edilməsi məqsədi ilə, əgər şəxsin sorğu alan iştirakçı dövlətin vətəndaşı olmasına görə onun verilməsinə rədd cavabı verilirsə, onda sorğu alan iştirakçı dövlət, əgər onun daxili qanunvericiliyi buna icazə verirsə və o, bu cür qanunvericiliyin tələblərinə cavab verirsə, sorğu edən iştirakçı dövlətin müraciətinə əsasən sorğu edən iştirakçı dövlətin daxili qanunvericiliyinə uyğun olaraq çıxarılmış hökmün icrasının təmin edilməsi və ya hökmün qalan hissəsinin icra edilməsi məsələsini müzakirə edə bilərlər. Bu maddənin tətbiq edildiyi hər hansı bir cinayətlə əlaqədar barəsində cinayət işi açılan hər bir şəxsə, icraatın bütün mərhələlərində ədalətli rəftar, o cümlədən ərazisində olduğu iştirakçı dövlətin daxili qanunvericiliyində nəzərdə tutulan bütün hüquq və təminatların həyata keçirilməsinə zəmanət verilir. 16-cı maddənin bu bəndində qeyd olunan tələb ekstradisiya institutunun insan hüquqları şərtləşməsinin vacib tərəfidir. Təsadüfi deyildir ki, ta qədim zamanlardan indinin özünə kimi cinayətkarların verilməsi şərtləri adət-hüquqi əsasa deyil, məhz yazılmış hüquq normalarına söykənmiş və inkişaf etmişdir. Buna səbəb isə odur ki, cinayət törətməkdə təqsirli bilinən bir şəxsin və ya məhkumun bir dövlətin yurisdiksiyasından çıxarılaraq başqa bir dövlətin yurisdiksiyası altına verilməsindən gedir. Bu isə həmin şəxslərin prosessual təminatlarına əməl olunmasını zəruri edir.

Əgər sorğu alan iştirakçı dövlətin əhəmiyyətli dərəcədə əsası varsa ki, bu sorğunun məqsədi hər hansı şəxsi onun irqi, cinsi, dini, vətəndaşlıq, siyasi baxış və ya etnik mənsubiyyətindən asılı olaraq cəzalandırmaq və ya təqib etməkdir və ya bu sorğunun təmin edilməsi burada göstərilən səbəblərdən hər hansı birinə görə həmin şəxsin vəziyyətinə xələl gətirə bilər, bu Konvensiyanın heç bir müddəası verilməyə dair öhdəlikləri müəyyən edən müddəa kimi şərh edilməməlidir (14-cü b.). İştirakçı dövlətlər verilmə haqqında sorğunun icra edilməsinə, yalnız onunla bağlı cinayətin həm də vergi məsələləri ilə əlaqəsi olmasına görə rədd cavabı verə bilməzlər. Verilməyə rədd cavabı verilənə qədər sorğu alan iştirakçı dövlət sorğu edən iştirakçı dövlətlə, sonuncuya öz mülahizələrini və sorğuda əks olunan faktlarla əlaqədar məlumatı təqdim etmək üçün ona kifayət qədər imkan yaratmaq məqsədi ilə, lazım gəldikdə, məsləhətləşmələr aparır.

*Beləliklə,* transmilli cinayətlərlə mübarizə sahəsində dövlətlər tərəfindən istifadə olunan ən mühüm əməkdaşlıq formalarından birini də cinayətkarların verilməsi təşkil edir. Cinayətkarların verilməsi cəmiyyətdə sosial ədalətin bərpası, təqsirkar şəxsin harada olmasından asılı olmayaraq öz layiqli cəzasını alması, eləcə də ona təyin olunmuş məhkəmə hökmünün icra olunmasına yönəlmiş dövlət hakimiyyət funksiyalarının həyata keçirilməsidir. Digər tərəfdən isə, ekstradisiyanın əsas məqsədi insan hüquqlarının

müdafiəsinə yönəlmişdir, ekstradisiya heç bir halda insan hüquqlarının pozulması ilə nəticələnməməli, insanların yaşamaq, azadlıq, ədalətli məhkəmə araşdırılması hüquqlarını məhdudlaşdırmamalıdır. Məhz bu sadalanan meyarlar 2000-ci il Transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə üzrə BMT Konvensiyasında da öz təsbitini tapıb.

## References

1. The Constitution of the Republic of Azerbaijan. Baku: Law Publishing House. 2018
2. Criminal Code of the Republic of Azerbaijan. Baku: Law Publishing House. 2016
3. Code of Criminal Procedure of the Republic of Azerbaijan. Baku. Law Publishing House. 2019
4. Law of the Republic of Azerbaijan on extradition of criminals: http://www.e-qanun.az/ frame work / 3550
5. Mammadov R.K. Outside the jurisdiction of criminal law // Journal of International Law. Baku, 2000, № 4-5, p. 150-157
6. UN Convention against Transnational Organized Crime, 2000: https: // ht-tps: // migration. gov.az/content/pdf/b6b9f093b2668222a6f6d5a0481ff5a1.pdf
7. Boychov A.I. Release of criminals. M .: SPb. Legal Center Press. 2004
8. Valeev D.M. International legal basis for the fight against transnational organized crime. Dissertation. Kazan 2016
9. Zhbankov V.A. Transnational organized drug crime and drug trafficking as it constitutes: modern state and basic trends / V.A. Zhbankov, A.V. Tabakov. M .: RIO Russian Customs Academy, 2017, 180 p.
10. Safarov N.A. Extradition in international criminal law: problems of theory and practice. M .: Walters Klover. 2005, 416 p.
11. Bir M. Critical Reflections on Transnational Organized Crime, Money Laundering, and Corruption. Toronto. University of Toronto Press. 2003
12. Bassiouni M. Cherif.International Extradition: United States Law and Practice.3 ed. N.Y.1996
13. Cassese A. International Criminal Law. Oxford. Oxford University Press. 2002
14. Cassese A, Gaeta P, Baig L, Fan M, Gosnell C and Whiting A. International Criminal Law. Oxford University Press. Oxford. 2008. 414
15. Madsen F. Transnational Organized Crime. Routledge. 2009
16. Vagias M. The Territorial Jurisdiction of the International Criminal Court Cambridge University Press. Cambridge. 2014.

**Rəyçi: prof. M.Qəfərov**

Göndərilib: 16.04.2021 Qəbul edilib: 17.04.2021